# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ MİLLİ QURTULUŞ GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQ



Gəncə Dövlət Universitetində 15 iyun – Milli Qurtuluş Günü münasibətilə təntənəli yığıncaq keçirilmişdir. İlk öncə universitetin rektoru professor Yusif Yusibov, professor-müəllim heyəti və tələbələr, universitetin foyesində qoyulmuş ümummilli lider Heydər Əliyevin əzəmətli büstü önünə tər çiçəklər və qərənfillər qoyaraq ulu öndəri sonsuz məhəbbət və ehtiramla yad etdilər. Akt zalında davam edən yığıncağı giriş sözü ilə Universitetin rektoru professor Yusif Yusibov açaraq iştirakçıları bu gün münasibətilə təbrik etdi. Tariximizə 22 il bundan əvvəl yazılmış Qurtuluş Günü Azərbaycan dövlətinin, Azərbaycan xalqının bayramıdır! Bu bayram öz keşməkeşli tarixi, ziddiyyətləri və olduqca çətin həll oluna biləcək hadisələri, nəhayət, qələbəsi ilə qeyd olunmaq, yaşamaq səlahiyyəti qazanmışdır.

Bu tarixi qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etdi. Xalq yekdilliklə 1993-cü il oktyabrın 3-də görkəmli siyasətçi, ölkənin xilaskarı Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. 1992-1993-cü illəri təhlil edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələndi. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı".

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri, Əlikram Hümmətov və onun əlaltılarının müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yaratdıqları ciddi təhlükələr tamamilə aradan qaldırıldı.

Ümumi tarix kafedrasının baş müəllimi Nərgiz Rəsulovanın "Böyük Qurtuluşa aparan yol" mövzusundakı çıxışı Milli Qurtuluş Gününün mahiyyətini tarixi faktlar əsasında iştirakçılara çatdırdı. Ulu öndərin hakimiyyətə yenidən qayıdışının ümumxalq qələbəsinin təntənəsi, dünya dövlətləri içərisində müstəqil imzası ilə tanınması kimi mənalandırıldı.

Rəsmi hissədən sonra pedaqoji fakültənin III kurs tələbəsi Əfsanə Mövlayevanın yazdığı və ifasında səslənən "Vətən sevgisi" və "Ulu Öndər" şeiri, "Ozan" folklor ansamblının ifasında "Qara xal yar", "Söz olur", "Gənclik" rəqs qrupunun ifası iştirakçılar arasında böyük bir canlanma yaratdı. Bu, tələbələrin ulu öndərin əziz xatirəsinə, Milli Qurtuluş Gününə ən gözəl bayram hədiyyəsi idi.



Sonda rektor Yusif Yusibov ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Bakı şəhərində keçirilən ali məktəblərin bədii yaradıcılıq festivalında fəal iştirak etdiklərinə görə bir qrup tələbə və müəllimə təhsil naziri Mikayıl Cabbarov və AHİK-nin sədri Səttar Mehbalıyev tərəfindən imzalanmış diplomları təqdim etdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**